

Əminə YUSİFQIZI,
*Respublikanın əməkdar jurnalisti*

# Uğrunda şəhid olduğun Füzulidə hava limanı açılıb, Yusif!

**Vətənimizə və xalqımıza sonsuz qürur hissi yaşadan, hər birimizə baş ucalığı haqq edən minlərlə qəhrəman övladlarımızla birlikdə həmyerlimiz Yusif Vaqif oğlu Məmmədov da 29 gün çətin və şərəfli döyüş yolu keçdi. O, Füzulinin və rayonun Şükürbəyli, Veysəlli kəndlərinin işğaldan azad olunması uğrunda döyüşlərdə, düşmənin 102-ci postunun darmadağın edilməsində misilsiz şücaət göstərdi. Milli Ordumuzun vətəni canından və qanından artıq sevən cəsur əsgəri Yusif Məmmədova çox təəssüf ki, qələbə sevincini yaşamaq qismət olmadı.**

2020-ci il oktyabrın 27-si onun üçün son döyüş oldu. Düşmən tərəfdən atılan artilleriya mərmisinin qəlpəsi ilə qəhrəmancasına həlak oldu. Sentyabrın 28-dən başlayaraq uğurlu döyüş əməliyyatlarında mərdliklə vuruşan Yusif şəhidlik zirvəsinə ucalmamışdan bir neçə gün öncə ailə üzvləri ilə telefonla əlaqə saxlamış- "Məndən qətiyyən narahat olmayın. Ordumuz çox güclüdür, düşmən qarşımızda duruş gətirmir. İnşallah, qələbə bizimlədir! Tezliklə görüşərik... ana!" deyərək xoş müjdə çatdırmışdır.

Qəhrəman şəhidimiz Yusif Vaqif və Diləzbər Məmmədovlar ailəşinin böyük oğlu idi. 1995-ci il yanvar ayının 16-da dünyaya gəlmişdi. Şəhər 9 nömrəli tam orta məktəbdə təhsil almışdı.

Ömrünü, gününü şagirdlərin təlim-tərbiyəsinə həsr etmiş, gözəl ənənələri ilə fərqli bir məktəbə 17 il direktorluq edən əməkdar müəllim Şükür Mehdiyevlə Yusif haqqında söhbət edirəm. Yusif haqqında öz balası kimi, yana-yana danışır: -Üç qardaş idilər, ikinci qardaşı Vüqar da bizim şağirdimiz olub. Sonbeşikləri Cavid isə hazırda məktəbimizin 6-cı sinfində oxuyur. Hər biri də vətənpərvər, tərbiyəli, çalışqan. Yusifin şəhadətə ucaldığını eşidəndə bütün kollektivimiz yas içində idi. Məzara tapşırılanda da hamımız bir yerdə idik. Deyirlər, dərdi bölüşəndə çəkmək daha asan olur. Vaqif də, Diləzbər də ən səliqəli və nümunəvi valideynlərimizdəndir. Övladlarının yaxşı təhsil almaları üçün daim səy göstərirdilər.

Yusif elə məktəbi bitirdiyi həmin ildə də Gəncə şəhərindəki Azərbaycan Dövlət Aqrar Universitetinin İqtisadiyyat fakültəsinə daxil olmuşdu. Ali təhsilini başa vurduqdan sonra Vətən qarşısında həqiqi hərbi xidmət borcunu Murovdağ bölgəsində yerinə yetirmişdi. Ordudan tərxis olunduqdan sonra şəhərimizdəki AS- İstehsal" MMC-nin Yevlaxdakı filialında əmək fəaliyyətinə başlayan Yusif Dövlət qulluğu vəzifəsinə qəbul olunmaq istəyi ilə "Comp Study" Tədris Mərkəzində hazırlıq keçmiş, birinci və ikinci sınaq turundan uğurla çıxmış, son turun keçiriləcəyi günə az qalmış Vətən müharibəsi başladığına görə səfərbərliyə cəlb olunaraq, neçə-neçə ərənlərlə birlikdə cəbhəyə yollanmışdı. Hərbi xidməti zamanı qumbaraatan manqa komandiri kimi ixtisaslaşdığı üçün döyüşlərdə də tank əleyhinə qumbaraatandan istifadə edib. Füzulinin Şükürbəyli və digər kəndlərinin azad olunmasında mərdliklə vuruşmuşdur. Sonuncu dəfə Veysəlli kəndində igidlik göstərmiş 102-ci erməni postunun ələ keçirilməsində, buraya üçrəngli Azərbaycan bayrağının sancılmasında şəxsən iştirak etmişdir. Ağır artilleriya atəşi nəticəsində qəlpə yarasından oktyabrın 26- da şəhid olmuşdur. Qəhrəman övladımızın nəşi şəhər rəsmilərinin, insan izdihamının iştirakı ilə Şəhidlər xiyabanında torpağa tapşırılmışdır.



Cəmi 44 gün davam edən döyüşlər ərzində düşmən ordusu darmadağın edildi. Dünya Azərbaycan dövlətinin gücünə, qüdrətinə yenilməz Ordusunun, əsgər və zabitlərinin döyüşkənliyinə və fədakarlığına heyran qaldı. Məhz bu çarpışmada Azərbaycan Ordusu məğlubedilməz erməni mifi üzərində öz müzəffər qələbəsi ilə dünya müharibələri tarixində görünməmiş şanlı qəhrəmanlıq salnaməsini yazdı, məğlub dövlət və xalq ləkəsinin birdəfəlik üstümüzdən götürülməsinə nail oldu.

Onu da qeyd edim ki, şəhərimizdəki "AS- İstehsal" MMC-nin rəhbərliyi Vətən müharibəsinə yola düşənəcən həmin kollektivdə çalışmış şəhid Yusifə böyük ehtiram və hörmət əlaməti olaraq onun qardaşı Vüqarı işə qəbul etmişlər.

Şəhid balamızın atası Vaqif, anası Diləzbər xanım, nənəsi Anastasiya, qardaşları Vüqar və Cavidlə söhbətləşərkən Vətən yolunda canını fəda edən ciyərparaları Yusiflə böyük iftixar hissi keçirdiklərini dilə gətirdilər. Vətənimizin ərazi bütövlüyü uğrunda haqq savaşında şəhidlik zirvəsinə ucalan ərənlərimizə də Allahdan rəhmət, qazilərimizə şəfa, əsgərlərimizə can sağlığı arzuladılar.

Sağlığında mərifəti, qanacağı ilə uşaqdan böyüyə qədər hamının hörmətini qazanmış, vətənpərvər kimi yetişərək şəhid adını haqq etmiş Yusifin valideynləri qarşısında ehtiramla baş əyir, vətənə sevgisini öz qızıl qanı ilə suvarmaqla sübut edən Yusifə ruhun şad olsun, torpağın nurla dolsun,- deyirəm. Bir də onu deyirəm ki, bu zəfəriniz mübarək, Azərbaycan əsgərləri! Xalqımız bu böyük qələbənizə görə Sizi Qalibiyyət bayrağı kimi ucalara yüksəltdi.

Yusif haqqında bu yazını qələmə almağımdan artıq bir ildən çox vaxt keçib. Şəhidin anası Diləzbər xanımı çoxdan tanıyıram. Oğlunun biliyinə, əməksevərliyinə görə həmişə onu ən ucada görmək istəyirdi. Oğlu isə şəhidlik ucalığını seçdi. Hər ikimiz Heydər Əliyev prospektində yaşadığımızdan ara-sıra onunla rastlaşıram. Ailə üzvləri haqqında o qədər xoş sözlər eşitmişəm ki, bu gün görüşəndə ilk gözümə çarpan saçında bircə qara tük də olmaması oldu. Xeyli söhbətləşdik.



Köz-köz, tüstü-tüstü alışıb yanmağına baxıb ürəyimdə neçə dəfə "dərdinə qurban olum "ay ana"- dedim. Oğlunun çalışdığı kollektivdə necə hörmət qazandığından, vətənə bağlılığından necə qürurla danışırdı, ana: - Anası ölmüş işdən çıxandan sonra Mingəçevirə gedib axşamlar kursda oxuyur, evə gələndə ana, məni bir saatdan sonra oyat deyib yatırdı. Və bir saatdan sonra yenidən durub oxuyurdu. Elə buna görə də ən yüksək balla dövlət qulluğuna daxil olmaq üçün birinci mərhələni keçmişdi.

Dilezbər xanım evdar qadındır. Həyat yoldaşı, oğlanları Yusifin müharibədə, ən qaynar nöqtədə vuruşduğunu ondan gizlədirdilər. Telefonda bir dəfə danışanda güllə-baran səsi eşitsə də, Yusif onu döyüşlərdə olmadığına inandıra bilmişdi. Bu sözü tez-tez təkrar edirmiş. Məne çoxlu dua et, ana. Dilezbər xanım oğlunun şəhid olmasında az qala özünü günahlandırır: - Çox tez-tez dua edirdim. Bəlkə dualarımı az etmişəm?! Deyib, təəssüflənir.

Həyat davam edir. Dilezbər xanımla söhbət edir, nə qədər kədərli, qəmli olduğunu, qiymətli oğul itkisi üçün həsrətinin sönmədiyini görürəm. Amma vətəni, torpağı xilas edən oğlu üçün gözlərindəki işığı da görürəm. Onun işğaldan azad etdiyi Füzulidə quruculuq işləri gedir, o torpaqlar nəfəsimizlə isinir. Bu günlərdə Füzulidə Beynəlxalq Hava Limanının açılışı olub. Yusif kimi oğulların qanı axdığı o torpaqlar əbədi vətənimiz, yurdumuz, ocağımız oldu.

Dövlətdən, onu əhatə edən insanlardan, qonumdan-qonşudan razılıqla danışır. Oğlu Vüqarı "AS- İstehsal" MMC-nin Yevlaxdakı filialının rəhbərliyi şəhid qardaşının yerinə lobarant vəzifəsinə işə götürüb. Elə onun iş otağında da fəaliyyət göstərir. Burada bütün kollektiv ondan öz qayğısını əsirgəmir.

**Məmmədov Yusif Vaqif oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur. Yusifin uğrunda canından keçdiyi Qarabağ Azərbaycandır!**